Organizational and methodological aspects of formation of development strategy for innovative entrepreneurship in the manufacturing industry of Azerbaijan

Ayten Abdurrakhmanova
Candidate for PhD, Institute of Economics of ANAS. Azerbaijan.
E-mail: ayten.abdullayeva1995@mail.ru
https://orcid.org/0000-0001-5548-0900

Abstract. The article examines organizational and methodological aspects of formation of the strategic development of innovative entrepreneurship in the manufacturing industry of Azerbaijan using various methods. At the same time, the main attention is paid to substantiating the relevance of the topic, the approach of scientists to this problem, the author's point of view towards them is revealed. In addition, the possibility of strategic development of targeted investment and innovation projects is considered, the feasibility of creating progressive innovative infrastructures in the industry is substantiated, a model for managing innovative development and the fundamental functional structure of the Technology Transfer Center are schematically given, and practical recommendations for their effective activity are offered.
Keywords: processing industry, innovative entrepreneurship, development strategy, infrastructure, project, models, transfer

http://dx.doi.org/10.29228/edu.328
JEL L26, L60; **UDC** 338.45:338.49
To cite this article: Abdurrakhmanova A. (2021). Organizational and methodological aspects of formation of development strategy for innovative entrepreneurship in the manufacturing industry of Azerbaijan. *Economic Growth and Social Welfare*, Issue I, pp. 81-90.
Article history: Received – 10.01.2021; Accepted – 19.03.2021

Azərbaycanın emal sənayesində innovasiya sahibkarlığının inkişaf strategiyasının formalaşmasının təşkilati-metodiki aspektləri

Aytən Əbdürrəhmanova
AMEA İqtisadiyyat İnstitutunun dissertantı.
Azərbaycan. E-mail: ayten.abdullayeva1995@mail.ru
https://orcid.org/0000-0001-5548-0900

Xülasə. Məqalədə Azərbaycanın emal sənayesində innovasiya sahibkarlığınıın inkişaf strategiyasının formalaşmasının təşkilati-metodiki aspektləri müxtəlif tədqiqat metodlarının köməyi ilə tədqiq edilmiş və bu zaman əsas diqqət mövzunun aktuallığının əsaslandırılmasına, alimlərin problemə dair yanaşmalarına, müəllifin onlara mövqeyinin açıqlanmasına yönəldilmişdir. Eyni zamanda, məqsədli innovasiya-investisiya layihələrinin innovativ inkişaf strategiyasına cəlb edilməsi, sahədə mütərəqqi innnovasiya infrastrukturlarının yaradılmasının məqsədəuyğunluğu əsaslandırılmış, innovativ inkişafın təşkilinin idarəetmə modeli və texnoloji transfer mərkəzinin funksional strukturunun prinsipal sxemləri işlənilmiş, onların səmərəli fəaliyyətinə yönəldilən tövsiyələr verilmişdir.
Açar sözlər: emal sənayesi, innovasiya sahibkarlığı, inkişaf strategiyası, infrastruktur, layihə, modellər, transfer

http://dx.doi.org/10.29228/edu.328
JEL L26, L60; **UDC** 338.45:338.49
Məqaləyə istinad: Əbdürrəhmanova A. (2021). Azərbaycanın emal sənayesində innovasiya sahibkarlığının inkişaf strategiyasının formalaşmasının təşkilati-metodiki aspektləri. *İqtisadi Artım və İctimai Rifah*, № 1, səh. 81-90.
Məqalə tarixçəsi: göndərilib – 10.01.2021; qəbul edilib – 19.03.2021

Giriş / *Introduction*

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsində, eləcə də digər iqtisadi fəaliyyət sahələrinin inkişafına dair eyni adlı, uzunmüddətli dövrə hədəflənən dövlət sənədlərində- biznes mühitinin yaxşılaşdırılması, özəl sektorun investisiya qoyuluşlarının təşviqi, yüksək texnoloji inkişafa, iqtisadiyyatın optimal strukturuna əsaslanan güclü rəqabət qabiliyyətli və inklüziv iqtisadiyyatın qurulması nəzərdə tutulmuşdur (SYXM, 2016; SYXS, 2016; SYXAS, 2016). Həmin hədəflərin qeyri-neft sektorunda və onun aparıcı sahəsi hesab edilən emal sənayesində həyata keçirməsi üçün ilk növbədə həmin sahəyə birbaşa xarici investisiyaları sürətlə cəlb etməklə istehsalın texniki-texnoloji səviyyəsini əsaslı şəkildə yaxşılaşdırmaq hesabına innovasiya məhsulunun həcmini və çeşidini artırmaqla, idxalı əvəz edən və ixrac yönümlü məhsul istehsalına nail olunmasıdır. Bunun üçün emal sənayesinsdə qeyri-qənaətbəxş innovasiya aktivliyinin yüksəldilməsi üzrə icrası təkamül yolu ilə təmin ediləcək sahibkarlıq strategiyasının formalaşması üzrə metodiki və əməli xarakterli tövsiyələrin işlənilməsinə zəruri ehtiyac duyulur.

Bizim fikrimizcə, innovasiya aktivliyi beynəlxalq təcrübədə nəzərdə tutulan astana həddindən kəskin dərəcədə aşağı olan emal sənayesində innovativ inkişaf srtategiyası formalaşdırılarkən, ilk növbədə, onun metodoloji bazasının təkmilləşdirilməsi üzrə müvafiq tövsiyələrin işlənilməsinə ehtiyac duyulur. Bu zərurət innovasiya sahibkarlığının təşkili və idarə edilməsində hələ də boşluqların mövcudluğu ilə şərtləşir. Əminliklə hesab edirik ki, həmin strategiyanın formalaşdırılması zamanı sistemli yanaşmaya üstünlük verilməklə innovasiya sahibkarlığının bütün növlərindən (istehsal, texnoloji, iqtisadi, idarəetmə, marketinq, sosial və ekoloji) bir-birilə qarşılıqlı əlaqədə, intellektual kapitalın növlərinin və onların əhatə dairəsinin tələbləri nəzərə alınmaqla, istifadə etmək lazımdır.

Əsas hissə / *Main Part*

Ədəbiyyatların təhlili

Sahibkarlıq subyektlərinin innovativ inkişaf strategiyası – sərbəst şəkildə formalaşdırılan strateji məqsədə çatmağın alət və metodu kimi çıxış edir. Belə strategiya müxtəlif mülkiyyət formalarında fəaliyyət göstərən təsərrüfat subyektlərində innovasiyaların fasiləsiz olaraq tətbiqinə hədəflənir. Təcrübədə innovasiya strategiyası eyni vaxtda və yaxud ardıcıllıqla strateji idarəetmənin – korporativ, biznes-vahidi və funksional səviyyələrində formalaşdırılır. Belə strategiya diffuziya xarakterli olub, təsərrüfat subyektlərinin bütün növ strategiyalarına inteqrasiya edilir. Eyni zamanda, strateji hədəfə çatmaq özü də müəyyən hədlərlə (maneələrlə) üzləşir ki, bu da müəssisənin innovasiya potensialı ilə şərtləşir. Rəqabət mühitinin genişləndiyi və fasiləsiz olaraq bazara hədəflənmə zəruriliyi kontekstində sahibkar müəssisələrin baza strategiyası onun innovasiya strategiyası ilə uzlaşdırılmalıdır. İnnovasiya problemlərinə həsr edilən bir sıra ədəbiyyatlarda (Lapin, 2016; Naumov, Zakharova, 2017; SIRRF, 2011; İS, 2020) innovativ inkişaf strategiyasının hücum, müdafiə, imitasiya (bənzətmə, təqlid) növlərini fərqləndirirlər. Onları hətta fəal, passiv və fəal-passiv alt növlərə də bölürlər. Bizim fikrimizcə, yeni yaradılan və fəaliyyətini innovativ inkişaf yolu ilə davam etdirmək istəyən sahibkarlar mühazifəkar və təqlidçi mövqeyi deyil, aktiv innovator mövqeyini qoruyub saxlamalıdırlar. Onlar yeni bazarın yaradılması – "Roque" (qabaqcıl texnologiyalardan istifadə, yeni məhsul təklif etmək), mütəxəssislərin cəlb edilməsi kimi mütərəqqi strategiya növlərinə üstünlük verməlidirlər. Deməli, innovasiya strategiyasının məzmunu sahibkarlıq subyektinin innovasiya fəaliyyətinin spesifikasından, funksional korporativ və biznes strategiyalarının qarşılıqlı əlaqəsindən asılıdır.

Bütün hallarda innovasiya strategiyası təsərrüfat subyektinin həyat tsikli nəzəriyyəsinə söykənməli və onun bazardakı mövqeyi nəzərə alınmalıdır. Bunun üçün mövcud resursların bazası (iqtisadi, marketinq, elmi-texniki, texnoloji, kadr, qeyri-material və maliyyə resursları, İKT-dən istifadə vəziyyəti və sairə) və onlardan istifadə imkanları nəzərə alınmalıdır.

Metodologiya

Tədqiqat prosesində strateji idarəetmə, analitik ümumiləşdirmə, təhlil və qiymətləndirmə metodlarından istifadə edilmişdir.

Tədqiqatın informasiya bazasını Azərbaycanın və xarici ölkə alimlərinin tədqiq edilən problemə dair elmi əsərlərində irəli sürülən müddəalar, eləcə də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları təşkil edir.

Nəticə və müzakirələr

Strategiyanın formalaşmasına təsir edən amillər və innovativ inkişafın təşkilinin idarəetmə modeli


Məlumdur ki, hər bir sahibkarlıq subyekti mürəkkəb sosial-iqtisadi sistemdir, onda həmin subyektin fəaliyyətinə mənfi və ya müsbət təsir edə biləcək daxili, eləcə də xarici təsir amilləri

strategiya formalaşdırılarkən nəzərə alınmalıdır. Həmin amilləri aşağıdakı kimi təsnifləşdirmək olar: sahibkarlıq subyektinin fəaliyyət sferasının xüsusiyyətləri; sahibkarlıq subyektləri tərəfindən istehsal edilən məhsulların nomenklaturası və çeşidi; məhsulların həyat tsikli; innovasiya potensialının formalaşması; məqsədli layihələrin tətbiqi və istehsalın diversifikasiyası prosesində yarana bilən risk səviyyəsi; sahibkarlıq subyektinin innovasiya strategiyasının onun korporativ strategiyası ilə uzlaşdırılması; sahibkarlıq subyektinin innovasiya strategiyasını həyata keçirmək üçün bütün növ resursların və imkanların mövcudluğu; innovasiya bazarının və fəaliyyət üçün zəruri olan elmi-texniki informasiyaların monitorinqinin nəticələri.

Bütün bunlar onu göstərir ki, sahibkarlıq subyektlərində zəruri innovativ dəyişikliyi məhsulun, texnologiyanın, tələbin həyat tsikli kontekstində aparılmalıdır. Bu isə innovasiya strategiyasının müəssisənin ümumi strategiyasının tərkibinə daxil olunmasını qaçılmaz edir və nəticədə innovasiya prosesi ilə strateji inkişaf məqsədləri arasında üzvi əlaqə yaranır ki, bunu da model şəklində aşağıdakı kimi təsvir etmək olar (şəkil 1).

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan orta və iri (o cümlədən müştərək) müəssisələrin innovasiya strategiyasının əsasını aşağıdakıların təşkil etməsi vacibdir:

- Rəsmi və etibarlı mənbələrə əsaslanan analitik və elmi-texniki informasiyalar;
- İnnovasiya sahibkarlığının prioritet istiqamətlərini formalaşdırmağa imkan verən kompleks innovativ, elmi-texniki və proqram təminatı;
- Elmi-texniki tədqiqatların və işləmələrin ekspertizasının nəticələri və koordinasiya sistemi;
- İntellektual mülkiyyətdən səmərəli istifadəyə təminat yaradan hüquqi baza;
- Peşəkar menecerlərin hazırlanması yenidən hazırrlanması və ixtisasların artırılması sisteminin inkişafı;
- İnnovasiya fəaliyyətinin, onun infrastrukturunun və idarə edilməsi strukturlarının qarşılıqlı və səmərəli təşkili məqsədilə müasir informasiya sistemini yaradılması;
- Daxili və xarici bazarlarda oxşar məhsula nisbətən yeni məhsulun yaradılması və onun rəqabət üstünlüyünə nail olmaq;
- Müəssisədə istehsal edilən məhsulların və tətbiq olunan texnika və texnologiyaların sistemli şəkildə təkmilləşdirilməsi.



Şəkil 1. Sahibkarlıq subyektlərinin innovativ inkişafının təşkilinin idarəetmə modelinin prinsipal sxemi
Mənbə: müəllif tərəfindən işlənilmişdir.


Məqsədli innovasiya-investisiya layihələrinin innovativ inkişaf strategiyasına cəlb edilməsi

Araşdırmalar göstərir ki, Azərbaycanın əksər emalı müəssisələrinin strategiyaları əsasən daxili bazarda mövqeyini qoruyub saxlamağa hədəflənmişdir. Mübağiləsiz qeyd etmək olar ki, həmin müəssisələr texnoloji modernizasiya məsələsinə "Qalıq prinsipi" mövqeyindən yanaşırlar. Elə buna görə də emal müəssisələrində innovasiya məhsulunun həcmi aşağı templə artır, qalıq məhsulun həcmi ildən ilə çoxalır, ixrac məhsullarının xüsusi çəkisi isə yüksək deyildir.

Deməli, sahibkarlıq subyektlərini innovativ inkişaf prosesinə cəlb etmək üçün mütərəqqi strategiyaya hədəflənmək lazımdır. Bu zaman başlıca şərt-müəssisənin innovasiya potensialını artırmaq, bazarda marketinq tədqiqatını genişləndirməkdir. Hesab edirik ki, Azərbaycanın emal sənayesinin və onun alt sahələrinin (müəssisələrin) aşağı texniki-texnoloji durumu və zəif innovasiya aktivliyi şəraitində məqsədli innovasiya-investisiya layihələrinin işlənilməsi və həyata keçirilməsi innovativ inikişaf strategiyasının vacib elementindən birini təşkil etməlidir.

Beynəlxalq Assosiasiyasının məlumatlarına görə, layihələrin idarə edilməsi alətlərinin təcrübədə tətbiqi zamanı 20-30% vaxta, 15-20% isə çəkilən xərclərə qənaət edilir. Layihələr əsasında idarəetmənin ən əsas üstünlüyü – onun son nəticəyə hədəflənməsi, innovasiyayönümlülüyü, ölçülə bilməsi və fasiləsiz olaraq sifarişçi ilə müştərinin (alıcının) qarşılıqlı əlaqədə olunmasıdır.

Hazırda Azərbaycanın emal sənayesində fəaliyyət göstərən bütün müəssisələrin yalnıız 10%-i iri, 21,6%-i - orta və 64,1%-i kiçik müəssisələrdir və sonuncularda sərbəst funksional idarəetmə orqanının yaradılması çox vaxt iqtisadi cəhətdən səmərəli olmur, onda həmin sahibkarlıq subyektlərində layihə yanaşmasını həyata keçirmək üçün innovasiya infrastrukturunun imkanlarından istifadəyə üstünlük verilməlidir. Deməli, həmin subyektlərin innovasiya fəaliyyətinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla, özəyi işçi qrupundan ibarət layihələrin idarə edilməsi modeli (və yaxud strukturu) işlənilməlidir. Həmin modelin prinsipal sxemini aşağıdakı kimi təsvir etmək olar. (şəkil.2.)



Şəkil 2. Kiçik və orta sahibkarlıq subyektlərində innovasiya infrasrtukturunun resurslarını cəlb etməklə layihə yanaşmasının tətbiqi prosesinin modeli
Mənbə: müəllif tərəfindən işlənilmişdir.

Layihələrin idarə edilməsi metodologiyasına istinadən (IPMA, 2021; AMUP, 2021) demək olar ki, innovasiya layihəsinin tətbiqi prosesini aşağıdakı iki əsas kateqoriyaya ayırmaq olar:

- İntellektual kapitalın bütün növlərinin (insan, təşkilati, istehlak) əhatə dairəsini nəzərə almaqla layihənin idarə edilməsi prosesi;
- Layihənin tətbiqi əsasında istehsal ediləcək məhsula hədəflənən proses.

Həmin proseslər qarşılıqlı əlaqədə olmaqla, layihənin bütün həyat tsikli dövründə kəsişirlər. Onu da qeyd etmək lazım gəlir ki, həmin kateqoriyaların əhatə dairəsi nəzərə alınmaqla kiçik və orta sahibkarlıq subyektlərində innovasiya layihələrinin həyata keçirilməsi zamanı icrası mümkün olan funksiyaların ağırlıq yükü innovasiya infrastrukturlarının üzərinə düşür və onların aşağıdakı əsas prinsiplərə riayət etmələrini tələb edir:

- Milli innovasiya məhsulu ilə daxili və xarici bazarlara sahibkar firmanın çıxışını dəstəkləmək;
- İnnovasiya layihəsinə yeni tərəfdaşları cəlb etmək üçün münbit şəraitin yaradılması;
- İnfrastruktur təşkilatların məqsədləri və maraqlarında ümumi yanaşmaya üstünlük verilməsi;
- İnformasiya məkanından ümumi istifadə;
- Qarşılıqlı əlaqələrdə operativliyin təmin edilməsi.

Emal sənayesinn innovasiya aktivliyinə təsir edən amillər

Azərbaycanın emal sənayesində innovasiya aktivliinə mənfi təsir edən başlıca amillərdən biri mövcud əsas istehsal fondlarının (ƏİF) aşınma səviyyəsinin yüksək olması, digər amil isə xarici investisiyaların sahəyə lazımi məbləğdə cəlb edilməməsidir. Rəsmi statistik məlumata görə, ölkənin emal sıənayesində 2020-ci ilin əvvəlinə ƏİF-in aşınma səviyyəsi 58,1%, o cümlədən qida məhsulları istehsalında 61%, geyim istehsalında 71,4%, tikinti materialları istehsalında – 73,4%; metallurgiya sənayesində 75,1%; metal məmulatlarının istehsalında 78,2%; mebel istehsalında – 65,4% maşın və avadanlıqların quraşdırılması sahəsində - 82,1% təşkil etmişdir.


Təkcə 2015-2019-cu illərdə emal sənayesində ƏİF-in aktiv hissəsinin xüsusi çəkisi 4,7 punkt azalaraq – 37,2%-ə enmişdir (AS, 2019, s.75-76). Bu faktlar onu göstərir ki, həmin sənaye sahəsində ciddi texnoloji yeniliyə ehtiyac duyulur. Bizim fikrimizcə, buna nail olmaq üçün sahəyə xarici investisiyaların cəlb edilməsi prosesi dinamik xarakter almalıdır. Hesablamalar göstərir ki, təkcə 2015-2019-cu illər ərzində həmin vəsaitin məbləği 871,6 mlyn manat təşkil etmişdir ki, bu da sahədə əsas kapitala yönəldilən bütün investisiyaların cəmi 16%-i deməkdir. Bu fakt onu göstərir ki, beş il ərzində emal sənayesinin 23 alt sahəsinin orta hesabla hər birinə cəmi 37,9 mlyn manat (871,6 mlyn man : 23) düşür.

Digər tərəfdən son beş ildə emal sənayesində əsas kapitala yönəldilən 5458 mlyn manat investisiyanın yalnız 157,2 mlyn man və yaxud 2,9%-i texnoloji innovasiyalara sərf edilmişdir (AS, 2019, s.56). Burada başqa bir məsələni də qeyd etmək vacibdir. Belə ki, bu vaxtadək Azərbaycanın sənaye sektorunda sürətləndirilmiş amortizasiya normaları tətbiq edilmir, bu barədə hətta müvafiq dövlət sənədi belə yoxdur. Həmin normalardan yalnız xarici investisiyalı müəssisələrdə istifadə edilir. Adı çəkilən normanın olmaması emal müəssisələrdə ƏİF-in aktiv hissəsinin yeniləşməsinə mənfi təsir göstərərək innovasiya fəaliyyətinin intensiv təşkilinə zərbə vurur. Beynəlxalq təcrübədə həmin mənfi amillərin təsirindən yaxa qurtarmaq üçün koseptual yanaşmaya, yəni texnologiyaların transferi və kommersiyalaşdırılması sistemindən istifadəyə geniş yer ayrılır. Həmin sistem innovasiya infrastrukturunun fəal forması kimi çıxış edir. Son 10 ildə respublika ərazisində yaradılan lizinq təşkilatları texnologiyaların transferi problemini az da olsa həll etmiş olsa da, emal sanayesinin yuxarıda şərh edilən texniki-texnoloji durumu qənaətbəxş səviyəyə çatmamışdır.

Emal sənayesində mütərəqqu innovasiya infrastrukturunun yaradılması

İnnovasiya sahibkarlığının səmərəli təşkili üçün Azərbyacanda daha mütərəqqi və sahibkarlıq subyektlərinin fəaliyyətində önəmli hesab edilən innovasiya infrastrukturunun yaradılmasına və onun şəbəkəsinin genişləndirilməsinə zəruri ehtiyac duyulur. Bizim fikrimizcə, həmin infrastrukturun biri kimi Texnologiyaların Transferi Mərkəzi (TTM) çıxış edə bilər. Belə mərkəzlər texnoparkların, investisiya Holdinqlərinin, eləcə də Universitetlərin tərkibində yaradıla bilər. İnnovasiya sahibkarlığına dəstək məqsədilə Avropa məkanında dünyanın müxtəlif ölkələrinin 500-dən çox TTM-i cəmləşmişdir (Terebova, 2015, s.839). MDB məkanında da TTM-lərin yaradılması intensiv xarakter almışdır. Məsələn, təkcə 2005-2010-cu illər ərzində Rusiya Federasiyasında 100-dən çox texnoloji transfer mərkəzləri, 140-dan çox innovasiya texnologiya Mərkəzləri və texnoparklar yaradılmışdır (Trofilova, 2015, s.27). Hesab edirik ki, Azərbaycanda emal müəssisələrinin şəbəkələrinin çox olduğu “Azərsun“ və “Gilan” Holdinqlərin, “Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin, Sumqayıt Kimya Sənayesi Parkının tərkibində funksional idarəetmə strukturu kimi TTM–lərin yaradılması, həmin prosesə rezident kimi respublikanın qabaqcıl

universitetlərinin cəlb edilməsi emal sənayesinin sahibkarlıq subyektlərinə qabaqcıl texnologiyaların transfer yolu ilə cəlb edilməsinə və onların kadr təminatının yaxşılaşdırılmasına imkan vermiş olacaqdır. Beynəlxalq təcrübəyə əsaslanaraq TTM-in funksional modelini sxem şəklində aşağıdakı kimi təsvir etmək olar (şəkil 3.)



Şəkil 3. Texnologiyaların transferi Mərkəzinn funrsional modelinin prinsipal sxemi
Mənbə: müəllif tərəfindən işlənilmişdir.

Emal sənayesində innovasiya sahibkarlığının inkişafına mənfi təsir göstərən və yuxarıda sadalanan amillər sırasına elmlə istehsalat arasında qarşılıqlı əlaqənin zəif olmasını da əlavə etsək, yaradılması təklif edilən TTM aşağıdakı alətlərdən də səmərəli istifadə etməlidir:

- TTM-in fəaliyyətində iştirak edən subyektlərin əməkdaşları tərəfindən qabaqcıl ölkələrdə transfer üçün müsbət hesab edilən texnologiyalar haqqında müfəssəl informasiya bazasının yaradılması və texnologiyalardan daha əlverişlisinin sahibkar firmalarda tətbiqinə kömək göstərilməsi;
- Emal müəssisələrində innovasiya-investisiya layihələrinin tətbiqi üçün investisiyaların cəlb edilməsi.

Heç şübhə etmirik ki, ölkənin iqtisadi sistemində TTM-in yaradılması innovasiya yönümlü iqtisadiyyatın inkişafında mühüm rol oynayacaqdır.

Yaradılacaq TTM-in fəaliyyəti çərçivəsində institusional mühitin formalaşması, innovativ inkişaf üzrə dövlət proqramlarının icrası, elmlə biznes arasında qarşılıqlı əlaqənin ehtiyatlarından istifadə, ixtiraların, innovasiyaların, patent-lisenziya və marketinq fəaliyyətinin stimullaşdırılması, ixracatçıların iqtisadi maraqlarının qorunması və onlara dəstək nəticə etibarı ilə emal sənayesinin texnoloji modernləşdirilməsinə və innovasiya məhsullarının istehsal həcminin artırılmasına imkan verməklə yanaşı, innovasiya sahibkarlığının intensivliyinə də öz müsbət təsirini göstərmiş olacaqdır.

Beynəlxalq təcrübədə texnologiyaların transferi və kommersiyalaşdırılması, bununula əlaqədar xarici investisiyaların ölkəyə cəlb edilməsində klasterlərin formalaşması və inkişafı mühüm rol oynayır. Ədalət naminə qeyd edilməlidir ki, son illər bir sıra dövlət proqramlarının, “Gələcəyə Baxış”konsepsiyasının həyata keçirilməsi nəticəsində Azərbaycanda səlahiyyətli klaster funksiyasını qismən yerinə yetirən klasterə bənzər innovasiya infrastrukturları yaradılmışdır. Onların sarasında yüksək texnologiya parkları, texnoparklar, sənaye parkları və məhəllələri, aqroparklar üstünlük təşkil edir. Onların fəaliyyətini müsbət qiymətləndirərkən, onu da qeyd etmək lazım gəlir ki, ölkənin emal sənayesində bu vaxtadək tam səlahiyyətli klaster yaradılmışdır. Bütünlükdə klasterlərin yaradılması və inkişafı iştirakçı kompaniyaların xərclərinin düzgün idarə edilməsi nəticəsində yüksək sinerji effekti ilə səciyyələnir. Odur ki, yuxarıdakı şərhlərin məntiqi nəticəsi kimi, yüksək texnoloji potensiala, inteqrasiya olunan təşkilati struktura malik klasterlərin Azərbaycanın emal sənayesinin sıx kooperasiya əlaqələri olan alt sahələrdə yaradılması ilə onların innovasiya sahibkarlığının strateji istiqamətlərindən birinə çevrilməsi arzu ediləndir. İnnovasiya aktivliyi qənaətbəxş olmayan emal sənayesində

ən vacib şərt sinergetik innovasiya yönümlü sənaye klasterlərinin yaradılmasıdır. Məhz belə klasterlər elmi, məsləhət, investisiya təşkilatlarının, İKT-nin inteqrasiya olunduğu keyfiyyətcə yeni idarəetmə strukturu olub, innovasiya layihələrinin sahibkarlıq subyektlərində həyata keçirilməsi ilə məşğul olmalıdır. İnnovasiyaya hədəflənən sinergetik sənaye klasterinin digər növ klasterlərdən əsas fərqli cəhəti ondadır ki, orada geniş informasiya infrastrukturu və inteqrasiya olunan idarəetmə mərkəzi fəaliyyət göstərir ki, bu da həmin klasterin daxilində çoxsaylı proseslərin elastikliyinin artırılmasına imkan verir. Əgər Azərbaycanda bu və ya digər təşkilati-hüquqi çətinlik səbəbindən Texnologiyaların Transferi Mərkəzini (TTM) yaratmaq qeyri-mümkün olarsa, sinerji İdarəetmə Mərkəzinin yaradılması, nıəticə etibarı ilə, emal sənayesinin idarə edilməsinin alt sistemi olmaqla, İKT-nin üzvi tərkib hissəsi olaraq informasiya proseslərinin əsas indikatoru kimi çıxış edəcək, innovasiya prosesinin daxili və xarici mühitinin ierarxiyaları üzrə inteqrasiyasını təmin etmiş olacaqdır.

Son illər Azərbaycanın iqtisadi fəaliyyət sahələrində, regionlarda müxtəlif təyinatlı klasterlərin yaradılmasına həsr edilmiş bir sıra məqalələr (elmi əsərlər) işıq üzü görmüşdür. Onların içərisində prof. T.N. Əliyevin 2019-cu ildə nəşr etdirdiyi klasterə dair fundamental monoqrafiyada respublikamızın iqtisadi rayonlarında YEK, kimya və neft-kimya üzrə sənaye, innovasiya, eləcə də elm və təhsil klasterlərinin yaradılması imkanları və prinsipləri (Əliyev, 2019, s. 402-445) göstərilmişdir. Həmin monoqrafiyada şərh edilən metodoloji yanaşmalardan bəhrələnməklə, Azərbaycanda aşağıdakı emal sahələri üzrə innovasiya yönümlü klasterlərin yaradılması təklifini irəli sürürük:

aqro-klasterlər; kənd təsərrüfatı avadanlıqlarının istehlakı klasterləri; ağac emalı üzrə klasterlər; metallurgiya sferası üzrə klasterlər; bio-texnologiya klasterləri; şərabçılıq klasterləri; ayaqqabı istehsalı üzrə klasterlər; elm və təhsil klasterləri; elektrotexnika avadanlıqları istehsalı üzrə klasterlər; neft maşınqayırma klasterləri; yüngül sənaye klasterləri; ekoloji klasterlər; logistika klasterləri; emal sənayesi müəssisələrinə xidmət edən digər klasterlər.

Nəticə / *Conclusion*

Bizim fikrimizcə, mənfi təsir amillərinin aradan qaldırılması və təklif edilən infrastrukturanın yaradılması alt emal sahələrində innovasiya sahibkarlığının inkişafına öz töhfəsini vermiş olacaqdır.

Ona nail olmaq üçün aşağıdakı mühüm məsələlər öz həllini tapmalıdır:

- emal sənayesinin bütün alt sahələrinin dayanıqlı inkişafının təmin edilməsi;
- alt sahələrdə institusional və biznes mühitinin yaxşılaşdırılması; sahibkarların işgüzar aktivliyinin və təhsil səviyyəsinin yüksəldilməsi, onların elmi-texniki yaradıcılıq səviyyəsinin yüksəldilməsi, təşəbbüslərin həyata keçirilməsinə münbit şəraitin yaradılması;
- emal sənayesinin alt sahələrində rəqabət qabiliyyətinin yüksəldilməsi;
- sahənin müəssisələrində sosial ziddiyyətlərin və ekoloji problemlərin həlli üçün sağlam mühitin yaradılması;
- özəl texniki layihələrin həyata keçirilməsinə şəraitin yaradılması;
- innovasiya tədbirlərinin icrası zamanı sərbəst və azad qərar qəbul edilməsi üçün münbit şəraitin yaradılması;
- innovasiya sferasında yaradıcı nailiyyətin və müsbət imicin dəstəklənməsi.

İnnovasiya sahibkarlığının inkişafında maliyyə təminatının yaxşılaşdırılması vacib şərtdir. Bu zaman sahibkarlar daha qısa müddətdə yüksək mənfəət əldə etməyə çalışırlar və əksər hallarda həmin vəsaiti innovasiya tədbirlərinə sərf etmirlər. Hesab edirik ki, bu səmərəsiz yanaşmadan müəyyən müddət ərzində kənarlaşmaq lazımdır, daha doğrusu, mənfəətdən istifadənin vaxtını dəyişmək lazımdır. Belə ki, əvvəlcə yeni və yüksək keyfiyyətli məhsulu yaratmaq, onun satışını tam həcmdə daxili və xarici bazarlarda satmaq, yalnız bundan sonra əldə edilən mənfəətin bir hissəsini özünün innovasiya fəaliyyətinin maliyyələşdirilməsinə sərf etmək lazımdır.

İstifadə edilmiş ədəbiyyat / *References*

AMUP (2021). Analiz metodologiy upravleniya proyektami. https://infostart.ru/ public/296315/. Data obrashcheniya: yanvar', 2021.

AS (2019). Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı: DSK, 250 s.; 2020-164 s.

Əliyev T.N. (2019). Klasterlər: Beynəlxalq təcrübə və innovativ inkişaf. Monoqrafiya. Bakı: Elm və bilik, 536 s.
IPMA (2021). International Project Management Association. https://www.ipma.world. Retrieved: January, 2021.
İS (2020). İnnovasiya strategiyasının əsas növləri. https://motherhouse.ru/az/ipoteka/ osnovnye-vidy-innovacionnoi-strategii-oboronitelnye-strategii/. Retrieved: January, 2021.
Lapin N.I. (2016). Teoriya i praktika innovatiki. Vtoroye izdaniye M.: Logos, 348 s.
Naumov A.F., Zakharova A.A. (2017). Innovatsionnaya deyatel'nost' predpriyatiya M.: INFRA-M, 256 s.
SIRRF (2011). Strategiya innovatsionnogo razvitiya Rossiyskoy Federatsii na period do 2020 goda. M, 158 s.
SYXAS (2016). Azərbaycan respublikasında ağır sənaye və maşınqayırmanın inkişafina dair Strateji Yol Xəritəsi. Bakı, 2016, 51 s.
SYXM (2016). Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016, 111s.
SYXS (2016). Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı. 2016, 96 s.
Terebova S.V. (2015). Tsentr transfera tekhnologiy kak instrument innovatsionnogo razvitiya territorii. *Kreativnaya ekonomika,* 9, s. 837-850.
Trofilova A.A. (2015). Integratsiya strategicheskogo i innovatsionnogo menedzhmenta. *Menedzhment v Rossii i za rubezhom,* 4, s. 25-36.

Организационно-методические аспекты формирования стратегического развития инновационного предпринимательства в обрабатывающей промышленности Азербайджана

Айтен Абдуррахманова
Диссертант Института Экономики НАНА.
Азербайджан. E-mail: ayten.abdullayeva1995@mail.ru

Резюме. В статье с помощью различных методов исследуются организационно-методические аспекты формирования стратегического развития инновационного предпринимательства в обрабатывающей промышленности Азербайджана. При этом основное внимание уделяется обоснованию актуальности темы, подходу ученых к данной проблеме, раскрывается точка зрения автора к ним. Кроме этого, рассматривается возможность стратегического развития целевых инвестиционно-инновационных проектов, обосновывается целесообразность создания прогрессивных инновационных инфраструктур в отрасли, схематично дается модель управления инновационного развития и принципиальная функциональная структура Центра трансфера технологий и предлагаются практические рекомендации по их эффективной деятельности
Ключевые слова: обрабатывающая промышленность, инновационное предпринимательство, стратегическое развитие, инфраструктура, проект, модели, трансфер.